1-1.qxd 30.03.2018 15:01 Page 1



“Ağstafanın füsunkar təbiəti, gözəl insanları vardır”.
Heydər Əliyev

*Heydər Əliyev - xalq birliyi əbədidir!*

# AĞSTAFA

Qəzet 1991-ci ildən çıxır İctimai-siyasi qəzet № 07 (1023) 30 Mart 2018-ci il Qiyməti 50 qəpik

Ağstafa Rayon İcra Hakimiyyətinin orqanı

## Bakıda Bona Dea Beynəlxalq Hospitalının açılışı olub

***Martın 27-də Bakının Nizami rayonu ərazisində Bona Dea Beynəlxalq Hospitalının açılışı olub.***

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva açılışda iştirak ediblər.**

**Azərbaycan Prezidenti hospitalın rəmzi açılışını bildirən lenti kəsdi.**





## İlham Əliyevin və İran Prezidenti Həsən Ruhaninin təkbətək görüşü olub

Rəsmi qarşılanma mərasimindən sonra Prezident İlham Əliyevin və İran İslam Respublikasının Prezidenti Həsən Ruhaninin təkbətək görüşü olub.

Dövlət başçıları görüşdə çıxış etdilər.

Prezident İlham ƏLİYEV dedi:

-Hörmətli cənab Prezident, Azərbaycan xoş gəlmisiniz. Sizi görməyimə çox şadam. Əminəm ki, səfər çox uğurlu olacaq, İran-Azərbaycan dostluq və qardaşlıq əlaqələri inkişaf edəcək. Bizim aramızda çox sıx əlaqələr mövcuddur. Bütün sahələr üzrə çox yaxşı əməkdaşlıq edirik. Həm siyasi, həm iqtisadi, mədəni, enerji, nəqliyyat – bütün sahələrdə yaxşı nəticələr var və bu gün imzalanacaq sənədlər əlaqələrimizin inkişafına yeni təkan verəcək. Bizim görüşlərimiz müntəzəm olaraq keçirilir. Görüşlər zamanı əldə edilmiş razılaşmalar, verdiyimiz tapşırıqlar yerinə yetirilir. Bunun nəticəsində bu gün İran-Azərbaycan əlaqələri ən yüksək zirvəyə çatmışdır. Bir daha xoş gəlmisiniz.

## Dövlət Təhlükəsizlik orqanları işçilərinin peşə bayramı qeyd edildi





***Martın 28-də Azərbaycan təhlükəsizlik orqanlarının 99 illiyi qeyd olunub. Tədbirdə rayon İcra hakimiyyətinin başçısı Məhərrəm Quliyev, rayonun hüquq-mühafizə orqanlarının rəhbərləri, Dövlət Təhlükəsizlik Xidməti Ağstafa rayon şöbəsinin kollektivi, rayon ərazisində yerləşən bir sıra hərbi hissələrin komandirləri, eləcə də rayon ictimiyyətinin nümayəndələri iştirakedib.***

Tədbir iştirakçıları öncə Ağstafa rayon Heydər Əliyev Mərkəzinin önündə Ulu Öndərin abidəsi önünə gül dəstələri düzərək dahi şəxsiyyətin əziz xatirəsinə ehtiramlarını bildiriblər.Tədbiri giriş sözü ilə açan İcra başçısı bu münasibətlə orqan işçilərini təbrik edərək bu əlamətdar günün əhəmiyyətindən geniş bəhs edib. Qeyd olunub ki, ümummilli lider Heydər Əliyevin 1997-ci il martın 23-də imzaladığı müvafiq Sərəncamla hər il 28 mart Azərbaycan Respublikasının təhlükəsizlik orqanları əməkdaşlarının peşə bayramı günü kimi qeyd edilir. Hazırda Heydər Əliyev siyasi kursunun uğurlu davamçısı möhtərəm Prezidentimiz İlham Əliyevin rəhbərliyi ilə ölkə həyatının bütün sahələrində olduğu kimi, dövlət təhlükəsizliyi sayəsində də aparılan geniş və məqsədyönlü islahatlar fəaliyyətin daha səmərəli təşklinə səbəb olub. Bu gün ökəmizin milli maraq və mənafeləri hərtərəfli və yüksək etibarlılıqla təmin olunur.

Tədbirin sonunda rayon İcra hakimiyyətinin başçısı Məhərrəm Quliyev Dövlət Təhlükəsizlik Xidməti Ağstafa rayon şöbəsinin bir sıra əməkdaşını müvafiq “Fəxri Fərman”larla təltif etdi.

1-1.qxd 30.03.2018 15:01 Page 2



# Novruz bayramı təntənə ilə qeyd olundu









***Bahar fəslinin gəlişini tərənnüm edən, xalqımızın ən sevimli və ən qədim tarixə malik olan Novruz bayramı ölkəmizin hər yerində olduğu kimi, Ağstafada da təntənə ilə qeyd olundu. Bu ilki Novruz bayramı şənliyi Ağstafa şəhər Musiqi Mərkəzində keçirildi. Tədbirdə Ağstafa rayon İcra hakimiyyətinin başçısı cənab Məhərrəm Quliyev, rayonun hüquq-mühafizə orqanlarının, idarə müəssisə və təşkilatlarının rəhbərləri, ağsaqqallar, ziyalılar, rayon ictimaiyyətinin nümayəndələri, eləcədə rayon ərazisində yerləşən hərbi hissələrin bir sıra zabit və əsgərləri iştirak etdi.***

Tədbir iştirakçıları öncə Musiqi Mərkəzinin qarşısındakı geniş meydanda yerli sənətkarlar və uşaqların əl işlərindən ibarət təşkil olunmuş sərgilərə, Novruzun rəmzləri olan kosa və keçəlin, bahar qızın iştirakı ilə kompozisiyalara, milli folklor nümunələrimizə tamaşa etdilər, yerli aşıqların ifasına, uşaqların təqdimatında şeir və mahnıları dinlədilər. Gənc qol güləşçilərinin, kiçik karateçi və pəhləvanların nümunəvi çıxışları da tədbir iştirakçılarına xoş təsir bağışladı.

Bayram tədbiri Musiqi Mərkəzinin böyük akt zalında davam etdirildi. Tədbiri giriş sözü ilə açan rayon İcra hakimiyyətinin başçısı hər kəsi ürəkdən təbrik edərək Novruz bayramının tarixindən və əhəmiyyətindən geniş bəhs etdi. Qeyd olundu ki, Novruz qədim və böyük bayram kimi yazın gəlişi ilə əlaqədar olaraq qeyd edilir və sevincli hadisələrə - qışın bitməsi və yazın başlamasına həsr olunur. Novruz xalqımızın mədəniyyətini, milli mənəvi dəyərlərini özündə əks etdirən, el bayramıdır. Novruz bayramı hər il ölkəmizdə dövlət səviyyəsində qeyd edilir. Bu həm də ulu əcdadlarımızın xatirəsinə dərin ehtiramın əlamətidir.

Tədbir mədəniyyət və incəsənət nümayəndələrinin təqdimatında geniş konsert proqramı ilə davam etdirildi.

# Mənim qurultay təəssüratım

***Azərbaycan ictimaiyyətinə yaxşı məlum olduğu kimi bu il mart ayının 10-da Bakı şəhərində Azərbaycan jurnalistlərinin VII qurultayı keçirildi. Qurultayda ölkə mətbuatının nümayəndələrindən biri kimi mən də qurultayda iştirak edirdim. Ümumi qaydalara uyğun olaraq qurultayda əvvəlcə Azərbaycan Respublikasının dövlət himni səsləndi və sonra Azərbaycan Mətbuat Şurasının sədri Əflatun Amaşovun ötən dövr ərzində görülmüş işlərlə bağlı hesabat məruzəsi dinlənildi. O, həmçinin hesabat dövründə mövcud olan problemlərdən və həmin problemlərin həlli yollarından danışdı. Bundan sonra çıxışlar oldu.***

Mən bütün qurultay nümayəndələri kimi çıxışları diqqətlə dinlədim. Əlbəttə, hamı üçün və o cümlədən mənim üçün ən maraqlı çıxış Azərbaycan Respublikası Prezidentinin köməkçisi Əli Həsənovun dərin məzmunlu çıxışı oldu. O, qeyd etdi ki, Azərbaycanda demokratik mediyanın təməli ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulmuş və bu gün həmin ənənə ölkəmizdə uğurla davam etdirilir.

Bəli, təcrübəli jurnalist, politoloq kimi mən də bütün bunların şahidi olmuşam. Çünki 30 ildən çoxdurdur ki, mətbuatda çalışır və yaranan gündən "Ağstafa" qəzetinin redaktoruyam. Bu illər ərzində Heydər Əliyevin mətbuata olan diqqət və qayğısını həmişə hiss etmiş və bütün bunların şahidi olmuşam. Bu qayğını gündəlik fəaliyyətlərində hiss edən əsl mətbuat işçiləri ulu öndər Heydər Əliyevi özlərinin yaxın dostu adlandırmış və bu gün də ona sadiqdirlər.

Əli Həsənov bu gün Azərbaycan mətbuatına dövlət tərəfindən göstərilən diqqət və qayğıdan ətraflı danışaraq qeyd etdi ki, bəkə də dünyanın heç bir ölkəsində jurnalistlərə bizdəki kimi nümunəvi iş şəraiti yaradılmır, onların ailə, məişət problemlərinin həll olunmasına bizdəki kimi qayğı göstərilmir. Məhz bunun nəticəsidir ki, Azərbaycan jurnalistləri haqqı, ədaləti yazmaqdan çəkinmir, problemləri qeyd etməklə yanaşı həmin problemlərin həll olunması üçün öz ürək sözlərini mətbuat səhifələrində əks etdirirlər.

Əli Həsənov Azərbaycan mediasından kənara atılan jurnalistlərin, özlərini reket adlandıran qələm sahiblərinin fəaliyyətindən da danışaraq gələcəkdə mətbuat şurasına seçiciləcək yeni heyətin bu məsələlərə daha diqqətlə yanaşmasını qeyd etdi. O, göstərdi ki, mətbuat işçiləri milli dəyərlərimizi, milli rəmzlərimizi həmişə müdafiətməlidir.



Mənim ən çox diqqətimi cəlb edən çıxışlardan biri də milli məclisin deputatı Aqil Abbasın çıxışı oldu. Bütün çıxış edənlərin ifadə etdikləri problemlərlə yanaşı onun rayon qəzetlərinin fəaliyyəti, bugünkü vəziyyəti barədə söylədiyi fikirlər təkcə mənim deyil, eləcə də bütün qurultay iştirakçılarının diqqətini cəlb etdi və onun çıxışından sonra rayon qəzetlərinin bəzi nümayəndələri öz sözlərini deməyə başladılar.

Söz yox ki, belə olan vəziyyətdə bir neçə rayon qəzeti redaktoru kimi, mən də mətbuat şurasının üzvü olduğuma görə çıxış etməyi qərara aldım. Öz çıxışımda Azərbaycan Milli Mətbuatının tarixindən bir neçə kəlmə söz dedikdən sonra qeyd etdim ki, rayon qəzetləri sözün əsl mənasında milli mətbuatımızın tarixi səhifələridir. Çünki bu gün fəaliyyətdə olan qəzet və jurnalların bir çoxunun yar-tut 20-30 yaşı olduğu halda, rayon qəzetlərinin əksəriyyəti yarım əsrdən çoxdur ki, fəaliyyət göstərirlər vəbu qəzetlərdə çalışan jurnalistlərin əksəriyyətinin çox böyük təcrübəsi vardır. Lakin bu gün rayon qəzetlərində bəzi problemlərin olması həmin qəzetlərin nəşrində, işçilərə zəhmət haqlarının verilməsində müəyyən çətinliklər vardır. Bu çətinliklərin aradan qaldırılması üçün bizə yaxından kömək göstərilməsini yeni seçiləcək mətbuat şurasından xahiş etdim. Söylədiyim fikirlər qurultay nümayəndələri tərəfindən rəğbətlə qarşılandı.

Əlbəttə, məndən sonra çıxış edən rayon qəzetləri redaktorları mənim söylədiyim fikirləri müdafiə etdilər və işimizdəki bəzi çətinliklərdən danışdılar.

Azərbaycan jurnalistlərinin VII qurultayı öz işini uğurla davam etdirdi və hamı gizli səsvermə yolu ilə Əflatun Amaşovu yenidən Mətbuat Şurasının sədri seçdi.

Qurultay öz işini müvəffəqiyyətlə başa çatdırdıqdan sonra bir çox qələm dostlarımla görüşdüm, onlarla dərdləşdim, dost kimi, qardaş kimi ayrıldım.

***İbrahim Əliyev***

1-1.qxd 30.03.2018 15:01 Page 3



# Vətəndaşların dövlət qurumlarına inamı və etimadı artır

*(əvvəli qəzetimizin ötən sayında)*

İnsan hüquq və əsas azadlıqlarının qorunmasını etibarlı şəkildə təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının prokurorluq orqanları «Vətəndaşların müraciətləri haqqında» Azərbaycan Respublikası Qanunundan irəli gələn vəzifəni layiqincə yerinə yetirmək, vətəndaşların Konstitusion hüquqlarının təmin olunmasının qarantı kimi çıxış etmək üçün həmişə öz üzərinə düşən vəzifəyə xüsusi diqqət yetirmiş, həmçinin Azərbaycan Respublikası Baş Prokurorluğunun rəhbərliyi də bu məsələni daima diqqət mərkəzində saxlamışdır.

Bu diqqətin nəticəsidir ki, Azərbaycan Respublikası Baş prokurorunun «Azərbaycan Respublikası Prokurorluğu orqanlarında vətəndaşların müraciətlərinə baxılması işinin daha da təkmilləşdirilməsi haqqında» əmri daha da təkmilləşdirilərək "Azərbaycan Respublikası Prokurorluğu orqanlarında müraciətlərə baxılması və vətəndaşların qəbulu işinin səmərəliliyinin artırılması haqqında" yeni əmr imzalanmışdır.

Qeyd etmək lazımdır ki, ütən düvr ərzində vətəndaşları narahat edən məsələlərin həllinə xüsusi diqqət və həssaslıqla yanaşılmasının hər bir dövlət orqanının və məmurunun mühüm vəzifələrindən olması barədə dövlətimizin başçısının tələbləri rəhbər tutularaq prokurorluq orqanlarında müraciətlərin obyektiv araşdırılması, vətəndaşların mütəmadi olaraq qəbullarının keçirilməsi daim diqqət mərkəzində saxlanılıb, şikayətləri doğuran səbəblərin aradan qaldırılmasına, qanunauyğun, ədalətli qərarların qəbul edilməsinə nəzarət və tələbkarlıq gücləndirilmişdir.

Vətəndaş müraciətləri üzrə natamam və qeyri-obyektiv yoxlamalar aparılması, süründürməçilik hallarına yol verilməsi, əsassız qərarlar qəbul edilməsi, vətəndaşlara müraciətləri üzrə formal və səthi cavabların verilməsi kimi çatışmazlıqların aradan qaldırılması, müraciətlərə baxılması və vətəndaşların qəbulu işinin daha da təkmilləşdirilməsi, bu sahədə bütün mənfi halların təxirəsalınmadan aradan qaldırılması, yeni informasiya texnologiyalarının imkanlarından daha geniş istifadə edilməsi istiqamətində çoxsaylı işlər görülmüşdğr.

Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin "161 - Qaynar xətt" əlaqə mərkəzinə daxil olmuş müraciətlər üzrə Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işləri başlanmış, həmçinin əlaqəli dövlət qurumları ilə birgə görülmüş tədbirlər nəticəsində digər müraciətlərin müsbət həll olunması təmin edilməklə vətəndaşların pozulmuş hüquqları bərpa edilmiş və aşkar edilmiş qanun pozuntularının aradan qaldırılması və gələcəkdə təkrarlanmaması məqsədi ilə lazımi tədbirlər görülmüşdür.

Prokurorluq orqanlarında informasiyakommunikasiya texnologiyalarının tətbiqi sahəsində səmərəliliyin artırılması məqsədilə zəruri tədbirlərin görülməsi intensivləşdirilmiş, "Elektron Sənəd Dövriyyəsi" və "Elektron Cinayət" proqramlarının funksional imkanlarının və tətbiqi dairəsinin genişləndirilməsi istiqamətində sistemli tədbirlərin həyata keçirilməsi, beynəlxalq təcrübə nəzərə alınmaqla bu proqramların tam tətbiq olunmasının təmin edilməsi barədə müvafiq işlər görülmüşdür.

«Vətəndaşların müraciətlərinə baxılması haqqında» Azərbaycan Respublikası Qanunun və Azərbaycan Respublikası Baş prokurorunun "Azərbaycan Respublikası Prokurorluğu orqanlarında müraciətlərə baxılması və vətəndaşların qəbulu işinin səmərəliliyinin artırılması haqqında" əmrinin tələblərinə Ağstafa rayon prokurorluğunun əməkdaşları tərəfindən ciddi əməl edilməklə vətəndaşların müraciətlərinə baxılması səviyyəsini yüksəltməkdə, bu işdə obyektivliyin, qanunun tələblərinə riayət olunmasının təmin edilməsində səmərəli işlər görülmüş, müraciət daxil olan andan onun icrası başa çatanadək vətəndaşın problemi nəzarətdə saxlanılmış, narazılıq yaranmaması və təkrar mğraciətlərə ehtiyac olmaması üçün lazımi tədbirlər həyata keçirilmişdir.

Vətəndaşların qəbulunun düzgün təşkili, onların müəyyən olunmuş qrafik əsasında qəbul edilməsi, qəbul zamanı vətəndaşın əsaslı probleminin həll edilməsi, onlara qarşı biganəlik hallarının aradan qaldırılması hər bir dövlət orqanının, hər bir idarə, müəssisə və təşkilat rəhbərinin əsas vəzifələri olduğundan Ağstafa rayon prokurorluğunun əməkdaşları tərəfindən yerlərdə vətəndaşların qəbulu qrafikinə uyğun olaraq Ağstafa rayonunun kəndlərində qəbullar təşkil edilib keçirilmiş, bu sahədə görülən tədbirəlayiq işlərin nəticəsində vətəndaşların müraciətlərinə operativ, qərəzsiz, vaxtında və qanunamğvafiq olaraq baxılmış, həmçinin vətəndaşların şəxsi qəbulu zamanı onlar tərəfindən qaldırılmış, lakin həlli prokurorluğa aid olmayan problemli məsələlərin də operativ həll edildməsi üçün aidiyyəti təşkilatlar qarşısında məsələ qaldırılmış və əksər hallarda həmin problemlər müsbət həll olunmuş, buna gürə də vətəndaş öz probleminin həllinə nail olduğundan Ağstafa rayon prokurorluğunun fəaliyyətindən razı qalmışlar.

Xüsusi vurğulamaq lazımdır ki, rayon prokurorluğunda məcburi köçkünlər və qaçqınlar, Qarabağ müharibəsi əlilləri və şəhid ailələri, aztəminatlı ailələrin üzvlərinin, bir sözlə daha çox qayğı və diqqət tələb edən sosial təbəqələrin ərizə və şikayətlərinə, həmcinin bu kateqoriyadan olan vətəndaşların müraciətlərinə xüsusi diqqət və qayğı ilə yanaşılmış, onların müraciətləri bir qayda olaraq operativ və müsbət şəkildə həll edilmişdir.

Bu gğn hər kəs inanır ki, Azərbaycan xalqı bu il müstəqilliyini daha da möhkəmləndirəcək, Azərbaycan Respublikasının Prezidenti, cənab İlham Əliyevin YAP-ın VI qurultayında qeyd etdiyi kimi, "2018-ci il sürətli inkişaf ili olacaq və ondan sonrakı bütün illərə çox güclü təkan verəcəkdir. Kənd təsərrüfatında, sənaye sahəsində indi həyata keçirilən layihələr tezliklə, bir-iki il ərzində üz bəhrəsini verəcəkdir".

Əminik ki, bu il Vətənini sevən hər bir azərbaycanlı onun rifahı, ərazi bütövlüyünün bərpası, torpaqlarımızın işğaldan azad edilərək Böyük qayıdışın həyata keçirilməsi, vətəndaşlarımızın daha xoşbəxt yaşaması üçün görüləcək işlərin fəal iştirakçısı olacaqdır.

Ulu öndər Heydər Əliyev tərəfindən yaradılmış hüquqi dövlətin daha da möhkəmləndirilməsində məqsədyönlü fəaliyyət göstərən Azərbaycan Prezidenti İlham Əliyevin diqqət və qayğısını görən prokurorluq işçiləri qanun keşiyində ayıq dayanmaq, dövlətçiliyin möhkəmləndirilmək, sabit və təhlükəsiz cəmiyyətin bərqərar olması üçün məsuliyyətli və eyni zamanda çox şərəfli xidməti vəzifəsini layiqincə yerinə yetirirlər. Bu istiqamətdə fəaliyyətimizi davam etdirərək, dövlətə sədaqətimizi, xalqa qayğımızı əməli işimizlə sübut edəcəyik.

**_Aslan Surxayev,_**
**_Ağstafa rayon prokuroru,_**
**_baş ədliyyə müşaviri_**

# Kənd seçki məntəqəsi




***Ötən hər bir gün Azərbaycan xalqı üçün tarixi bir hadisəyə çevriləcək prezident seçkilərinə yaxınlaşdırır. 11 aprel prezident seçkiləri gününü hamı səbirsizliklə gözləyir. Çünki həmin gün Azərbaycan vətəndaşları üçün qarşıdakı yeddi il üçün onlara xoşbəxt həyat bəxş edəcək, ölkəmizdə siyasi sabitliyi qoruyacaq, böyük sosial-iqtisadi layihələrin həyata keçirilməsini təmin edəcək bir namizəd müəyyən ediləcək və ona səs veriləcəkdir.***

Prezident seçkilərinə hazırlıq işləri ölkəmizin hər yerində olduğu kimi, rayonumuzda da demək olar ki, tam yekunlaşmış, seçicilərin sərbəst, demokratik qaydada və heç bir təzyiq göstərilmədən səs vermələri üçün hər cür şərait yaradılmışdır. Bununla əlaqədar bu günlər Dağkəsəmən kəndindəki 2 saylı seçki məntəqəsində olarkən bütün bunların tam şahidi olduq. Məntəqə sədri Təranə Məmmədova ilə görüşdük və o, suallarımızı cavablandıraraq dedi:

-Artıq bir neçə ildir ki, belə siyasi kampaniyalarda iştirak edirəm. Bu dəfəki seçki əvvəlki seçkilərdən xeyli fərqlənir. Ən başlıcası seçicilərdəki siyasi fəallıq əvvəlki illərdəkindən qatqat fərqlənir. Bu seçkilərdə mənim rəbərlik etdiyim seçki məntəqəsində 1153 nəfər seçici səs verəcəkdir ki, onların 5 nəfəri ilk dəfədir ki, belə siyasi kampaniyada iştirak edir. Biz seçkilər haqqında qanuna uyğun olaraq seçicilərin siyahısını hazırlayıb lövhələrdən asmışıq. Prezidentliyə namizədlərin şəkilləri də məntəqəmizə gətirilmiş və lövhələrə vurulmuşdur.

Ötən müddətdə seçicilərin hamısına bildiriş vərəqələrini paylamış, qeydiyyatdan çıxan seçicilərə isə çıxarış vərəqələri verilmişdir. Həmin seçicilərin istədikləri seçki məntəqələrində səs verə bilmələri barədə onlarla lazımi izahat işləri aparmışıq. Bir sözlə, seçkilərə hazırlıqla əlaqədar bütün işləri yekunlaşdırmış və demək olar ki, seçkilərə tam hazırıq.






1-1.qxd 30.03.2018 15:01 Page 4



*Vaqif Həsənov-77*

# Təcrübəli lor həkimi



Yəqin ki, ağstafalılar bacarıqlı həkim Vaqif Həsənovu yaxşı xatırlayırlar. O, 1964-cü ildə Azərbaycan Dövlət Tibb Universitetini bitirdikdən sonra Ağstafa şəhər xəstəxanasında burun-boğaz-qolaq həkimi (lor həkimi) kimi fəaliyyətə başlamış, 50 ildən artıq əhaliyə lazımi tibbi xidmət göstərmişdir. Bu bahar Vaqif həkimin 77 yaşı tamam olmuşdur. Təravətli bahar onun ailəsinə ikiqat sevinc gətirmişdir. Bu nümunəvi ailə qohum-əqrəba ilə, dost-tanışlarla birlikdə həm Novruz bayramını, həm də Vaqif həkimin 77 yaşını sonsuz fəxarət hissi ilə qeyd etmişdir. Əziz bayram günlərində həkim hərarətli təbriklərlə dolu məktub və teleqramlar almışdır.

Bu sevincli günlərdə biz də təcrübəli və bacarıqlı həkim sadələyi, qayğıkeşliyi və mehribanlığı ilə el-obada həmişəlik hörmət qazanmış Vaqif Həsənovu 77 yaşının tamam olması münasibətilə ürəkdən təbrik edir, ona möhkəm can sağlığı, uzun ömür arzulayırıq.

***F. Heydərli,***
***Rayon Ağsaqqallar***
***Şurasının sədri***

# Məktəblilər növbəti tur-aksiyaya qoşuldular

***Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müvafiq tapşırığına əsasən ölkəmizin tarixinin, mədəniyyətinin, adət-ənənələrinin, müstəqillikillərində əldə edilmiş nailiyyətlərinderindən öyrənilməsi məqsədilə müxtəlif şəhər və rayonlarda yaşayan məktəbli gənclərin respublikamızın digər bölgələrinə səyahətinin təşkili dava metdirilir. "Ölkəmizi tanıyaq" devizi ilə keçirilən maarifləndiricitur-aksiya çərçivəsində ağstafalı məktəblilər növbəti mərhələyə qatılıblar. Bu günlər 40 nəfər IX-XI sinif şagirdi 5 bələdçi-müəllimin müşayiəti ilə Qəbələ-Şəki-Zaqatala marşrutu üzrə yola düşüblər. Hərtur-aksiya öncəsi olduğu kimi bu səyahətdən öncə də iştirakçılar Ağstafa rayon Heydər Əliyev Mərkəzinin önündə Ulu Öndərin abidəsini ziyarət edib önünə gül dəstələri qoydular. Yolasalma mərasimində rayon İcra hakimiyyətinin, Təhsil şöbəsinin məsul işçiləri, valideynlər, eləcə də rayon ictimaiyyətinin nümayəndələri iştirak ediblər.***





Tədbirdə Ağstafa rayon İcra hakimiyyəti başçısının 1-ci müavini Ramiz Tatarov çıxış edərək aksiyaçılara uğurlar arzuladı.

Dörd günlük səfər çərçivəsində məktəblilər Qəbələ, Şəki və Zaqatala istiqaməti üzrə səfər edəcəklər. Tur-aksiya iştirakçıları müasir turizm infrastrukturuna malik Qəbələdə "Tufandağ" Xizəkçilik Kompleksinə, qədimliyi ilə fərqlənən Çuxur Qəbələ Tarix və Mədəniyyət Qoruğuna, udilərin yaşadığı Nic kəndinə baş çəkəcəklər. Məktəblilər "Şəki-İpək" kombinatında, Dövlət Tarix-Memarlıq Qoruğu, Şəki xanlarının sarayı, Yuxarı Karvansaray, Aşağı Karvansaray, Cümə məscidi və Kiş kəndindəki qədim Alban məbədi, "Marxal" müalicəvi istirahət kompleksi ilə də tanış olacaqlar. Zaqatalada şagirdlər müasir fındıq emalı müəssisəsi, tütünçülük təsərrüfatları ilə tanış olacaq, Tarix-Mədəniyyət Qoruğuna baş çəkəcək, Dədə Qorqud Meydanını gəzəcəklər.

# Novruz bayramı sovqatı paylanıldı



Hər il olduğu kimi, bu Novruz bayramında da Ağstafada rayonun aztəminatlı ailələrinə sovqatlar paylanıldı. Müəyyən olunmuş ailələr üzrə tərtib olunmuş siyahıya əsasən bayram sovqatları Ağstafa şəhəri Musiqi Mərkəzinin önündə, eləcədə tədbirdə iştirak etməyən ailələrin yaşadıqları ünvanlara çatdırılmışdır.

Sovqatları qəbul edən sakinlər onlara göstərilən bu cür diqqət və qayğıya görə dərin minnətdarlıqlarını bildirmişlər.

# Bilik yarışı

***Respublika fənn olimpiadasının rayon mərhələsinin nəticələri açıqlanıb. Rayonumuz üzrə bilik yarışında iştirak edən 387 nəfər şagirddən 45 nəfəri yarımfinal turuna vəsiqə qazanmışdır. Bu cür məqsədyönlü olimpiadaların təşkil edilməsində əsas məqsəd istedadlı uşaqları aşkar etməkdən, şagirdlərdə fənlərə olan marağı artırmaqdan, onların sağlam rəqabət mühitində öz bilik və bacarıqlarını nümayiş etdirməkdən ibarət olmuşdur. Əvvəlki illərdə olduğu kimi, cari tədris ilində də belə faydalı tədbirlər davam etdirilmişdir.***

Bilik yarışının rayon mərhələsindən azərbaycan dili fənni üzrə 14, coğrafiya fənni üzrə 20, tarix fənni üzrə 5, fizika fənni üzrə 3, riyaziyyat fənni üzrə 2 şagird yarımfinal turuna vəsiqə qazanmışdır.

## *Etibarsız sayılır*

Eynallı kənd sakini Quliyev Qulu Bəhrəm oğlunun adına olan Torpağın mülkiyyətə verilməsinə dair JN -367 nömrəli Şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

***

Tatlı kənd sakini Əsgərov Sabir Rüstəm oğlunun adına olan fərdi yaşayış evinə dair 135 nömrəli Qeydiyyat vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

***

"N" saylı hərbi hissənin müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu Əsgərli Xaliq Yagalə oğlunun adına olan AB №0018744 nömrəli hərbi vəsiqə itdiyi üçün etibarsız sayılır.

# Gənc idmançıların növbəti qələbəsi



Bu günlər Ağstafa rayon Köşəsgər kənd 1 saylı tam orta məktəbin idman zalında uşaqlar arasında karate-do idman növü üzrə açıq Ağstafa birinciliyi keçirilmişdir. Yarışda Ağstafa idmançıları ilə yanaşı Tovuz-Qazax rayonlarının gənc idmançıları da iştirak etmişlər. Doqquz dəst medal uğrunda gedən mübarizə olduqca gərgin olmiş, gənc idmançılar öz bacarıqlarını nümayiş etdirmişlər. Yarışda yekun nəkticələrə görə Cavidan Ələkbərov, Elcan Həsənov, Nihat Nəcəfov, NicatƏsədov, Mərdan Mehdiyev, Anar Məmmədli, Novruz Zeynalov, Polad Poladov, Əli Mehdiyev birinci yerə layiq görülmüşlər. Məmmədəli Həsənov, Zakir Məhərrəmov, Həmid Məhərrəmli, Tapdıq Məmmədov, Məhəbbət Haqverdiyev, Rəhim Məmmədov, Fəxrəddin Rəhimov, Ayxan Həsənov, Əsgər Hüseynov ikinci yerə layiq görülmüşlər. Qalib gələn idmançılar diplom və medallarla təltif olunmuşlar. Onlar həmçinin ulu öndər Heydər Əliyevin xatirəsinə həsr olunacaq turnirdə iştirak etmək hüququ qazanmışlar.

## Allah rəhmət eləsin!

Ağstafa rayon icra hakimiyyətinin başçısı Məhərrəm Quliyev, RİH başçısının müavinləri Ramiz Tatarov, Lalə Eyyubova, Aydın Hacıyev, aparatın məsul işçiləri Şaiq Qurbanov, Leyla İsayeva, Yasin Əfəndiyev, Sənan Mustafayev, Müşfiq Hüseynov istedadlı şairə Cığatel İsaqızına həyat yoldaşı

**Camalın**

vəfatından kədərləndiklərini bildiri, dərin hüznlə başsağlığı verirlər.

***

Rayon Ağsaqqallar Şurasının sədri Firdovsi Heydərli ailəsi ilə birlikdə şairə Cığatel İsaqızına həyat yoldaşı

**Camalın**

vəfatından kədərləndiklərini bildiri, dərin hüznlə başsağlığı verirlər.

***

"Ağstafa" qəzetinin baş redaktoru İbrahim Əliyev ailəsi ilə birlikdə şairə Cığatel İsaqızına həyat yoldaşı

**Camalın**

vəfatından kədərləndiklərini bildiri, dərin hüznlə başsağlığı verirlər.

***

Ağstafada fəaliyyət göstərən Hüseyn Arif adına ədəbi məclisin üzvləri şairə Cığatel İsaqızına həyat yoldaşı

**Camalın**

vəfatından kədərləndiklərini bildiri, dərin hüznlə başsağlığı verirlər.

**BAŞ REDAKTOR:**

**İBRAHİM ƏLİYEV**

**Həmtəsisçi:**
*"Ağstafa" qəzetinin jurnalist kollektivi*

*Şəadətnamə № 308*

*Redaksiya heyəti*

*L.Eyyubova, L.İsayeva, K.Abbasov, Q.Heydərov, İ.Əliyev, S.Qaratorpaq, G.Kərimov, A.Tağızadə, F.Heydərli*

*Qəzet redaksiyanın kompyüter mərkəzində yığılmış, səhifələnmiş və "Mətbuat firması" mətbəəsində çap olunmuşdur.*

*Ünvan: Ağstafa şəhəri, Heydər Əliyev pros. - 10*
*Tel: 5-14-56*
*mob: (050) 344-26-20*
*Tiraj: 1000*